# NİZAMİ İRSİ BİBLİOQRAFİK MƏNBƏLƏRDƏ

**S. P.İSMAYILOVA**
**Biblioqrafiyaşünaslıq kafedrasının baş müəllimi,**
**pedaqogika üzrə fəlsəfə doktoru**
**simabdu@mail.ru**

*Məqalədə Nizami irsi haqqında ümumi məlumat verilmiş, Nizami Gəncəvinin əsərlərinin nəşri, onun haqqında olan sənəd və informasiya bazası, dahi şairə həsr edilmiş biblioqrafik informasiya mənbələri işıqlandırılmışdır.*

***Açar sözlər:*** *Dahi Azərbaycan şairi Nizami Gəncəvi, Nizami irsi, biblioqrafik informasiya mənbələri.*

Azərbaycan xalqının böyük oğlu Nizami Gəncəvinin dahiyanə əsərləri dünya ədəbiyyatı xəzinəsinin ən parlaq incilərini təşkil edir və bəşəriyyətin yetirdiyi ən böyük dühaların yaratdıqları ölməz abidələr arasında şərəfli yer tutur.

Nizami dünya mədəniyyəti tarixinə ölməz "Xəmsə" müəllifi kimi daxil olmuşdur. Nizami dahi bir şair olmaqdan əlavə, dövrünün böyük alim və mütəfəkkiri kimi də məşhurdur. Onun toxunduğu problemlərin əhatə dairəsi çox genişdir. Həyatın elə bir sahəsi, bəşəriyyəti düşündürən elə bir vacib məsələ tapmaq çətindir ki, böyük söz ustadının hələ orta əsrlərdə "Beş xəzinə" ("Pənc Gənc") adlandırılan "Xəmsə"sində yüksək sənətkarlıqla öz bədii əksini tapmamış olsun.

Zəngin Nizami irsinin tədqiqində, təbliğində və tələbatçılara çatdırılmasında sənəd və informasiya bazası kimi biblioqrafik mənbələrin də xüsusi rolu olmuşdur. Ümumbəşəri yaradıcılığa malik Nizami Gəncəvi irsi ədəbi-bədii mənbələrlə yanaşı, biblioqrafik informasiya mənbələrində də əks etdirilmişdir. Bu mənbələrin yaradılmasının ilkin özəyi isə Nizami irsinin zənginliyi və bu irsə daim diqqət və sevgi olmuşdur. Nizami irsinə böyük hörmət və qayğı ilə yanaşan respublika rəhbərliyi daima bu irsin qorunub saxlanmasını, təbliğini həyata keçirmək üçün şairin əsərlərinin nəşrinin, yubileylərinin vaxtaşırı təntənəli keçirilməsi üçün qərar və Sərəncamlar vermişdir.

Nizami irsini əks etdirən xüsusi biblioqrafik mənbələr respublikamızda keçən əsrin 40-cı illərindən tərtib olunmağa başlamışdır. Xüsusi biblioqrafik mənbələrlə yanaşı, ümumi biblioqrafik informasiya mənbələrində də Nizami yaradıcılığı, onun haqqında, əsərlərinin təkrar nəşrləri əks olunmuşdur. Bu biblioqrafik mənbələr XX əsrin 20-30 - cu illərindən etibarən nəşr edilməyə başlamışdır. [ 2 ]





Nizami Gəncəvi irsinə hörmət və qayğı bütün zamanlarda Azərbaycan dövlətinin diqqətində olmuşdur. Bunun bariz nümunəsidir ki, 1938-ci ilin iyul ayının 25 – də Azərbaycan KP MK "Böyük Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 800 illiyinin bayram edilməsi haqqında" qərar qəbul etmişdir.

Hələ müharibədən əvvəl başlamış bu iş müharibədən sonrakı ilk illərdə Nizaminin anadan olmasının 800 illiyinə hazırlıq işləri ilə əlaqədar daha da genişlənmişdir.

Nizami Gəncəvinin yubileyinə hazırlıq ilə əlaqədar Azərbaycan SSR EA – nın Nizami adına Ədəbiyyat İnstitutu 1947-ci ildə "Nizami Gəncəvi" adlı məqalələr məcmuəsini tərtib edib nəşr etdirmişdir. [ 3 ]

Bu baxımdan Nizamişünaslığın sənəd kütləsi də bu sahənin informasiya mənbəyi kimi biblioqrafiyalaşdırma prosesində əsas obyekt rolunu oynayır. Buraya dahi şair Nizami Gəncəvinin ancaq qələmindən çıxan əsərləri deyil, ümumiyyətlə, Azərbaycan ədəbiyyatının tarixi, nəzəriyyəsi, bu sahənin tədqiqinə həsr edilmiş kitablar, dövri nəşrlər, son dövrlərdə meydana gələn elektron nəşrləri, digər informasiya daşıyıcıları daxildir.

Bütün bunlarla yanaşı böyük şairin yubiley tədbirlərinin dövlət səviyyəsində, təntənəli şəkildə keçirilməsi də Nizamişünaslığın sənəd - informasiya bazasının zənginləşməsinə səbəb olmuşdur.

Xüsusilə, 1941-ci ilin aprel ayının 29-da Azərbaycan KP MK-nın büro iclasının qərarı ilə Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyinin keçirilməsinin rəsmi tarixi (1941-ci il 16 oktyabr) müəyyənləşdirilmişdir. Yubileyin müharibə şəraitində Sankt – Peterburq Dövlət Ermitajında qeyd edilməsi dahi Nizamiyə olan dərin hörmət və ehtiramın bariz nəticəsi idi. Bu tədbir eyni zamanda o dövrün çox böyük mədəni hadisəsi idi.

Belə mədəni tədbirlərin elmi nəticəsi olaraq SSRİ EA Azərbaycan filialının Nizami adına Dil və Ədəbiyyat İnstitutunun hazırladığı "Nizami lirikası" kitabı çapdan çıxmışdır.

1979 - cu ildə Azərbaycan KP MK "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsini, nəşrini və təbliğini yaxşılaşdırmaq tədbirləri haqqında" qərar qəbul etmişdir.

Nizamişünaslığın sənəd informasiya bazasının zənginləşməsində böyük şairin yubileyləri ilə əlaqədar olaraq tərtib edilib, nəşr olunmuş kiçik həcmli tövsiyə ədəbiyyat siyahıları, metodik tövsiyələr, yaddaşlar, tövsiyə biblioqrafik göstəriciləri də şairin həyat və yaradıcılığının öyrənilməsində, əsərlərinin təbliğində mühüm rol oynamışdır.

Belə mənbələrdən 1986-cı ildə M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası tərəfindən "Nizami Gəncəvi" adlı tövsiyə ədəbiyyat siyahısını

qeyd etmək olar. Tövsiyə vəsaitində materiallar Azərbaycan və rus dillərində qruplaşdırılmışdır. [ 7 ]

M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası tərəfindən şairin 850 illik yubileyinə həsr edilmiş "Nizami Gəncəvi - 850" adlı metodik tövsiyələrdir. Metodik biblioqrafik vəsait 1990-cı ildə nəşr edilmişdir. [ 8 ]

Nizami Gəncəvinin 850 illik yubileyinə həsr edilmiş digər bir metodik vəsait rus dilində "Народа сердце и глаза. Народа совестьты" adı ilə Sumqayıt Mərkəzləşmiş Kitabxana sistemi tərəfindən 1991-ci ildə nəşr edilmiş bu vəsait rus dilli oxucular arasında Nizami irsinin təbliğində mühüm rol oynamışdır. [5]

Belə tədqiqat əsərləri içərisində görkəmli şərqşünas və Nizamişünas alim Rüstəm Əliyevin 1991-ci ildə nəşr etdirdiyi "Nizami Gəncəvi", yenə həmin ildə Sabir Əliyevin "İnsana arxadır onun kamalı", Rüstəm Əliyevin tərcüməsi ilə 1991-ci ildə Məmməd Əmin Rəsulzadənin "Azərbaycan şairi Nizami", 1990-cı ildə Xəlil Yusifovun "Nizaminin lirikası" adlı elmi, bədii monoqrafik əsərlər qiymətli tədqiqat əsərləri kimi Nizami irsinin öyrənilməsində çox əhəmiyyətlidir.

1970-ci illərdə ümumən respublikamızda klassik mədəni irsin öyrənilməsi baxımından tamamilə yeni mərhələ başlayır. Həmin mərhələ bilavasitə xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun təşəbbüsü ilə qəbul edilən "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" 1979-cu il 6 yanvar tarixli qərar bu istiqamətdə kompleks vəzifələr irəli sürərək Nizami irsinin və ümumən orta əsrlər Azərbaycan mədəniyyətinin sistemli araşdırılması üçün geniş perspektivlər açmışdır. 1981-ci ilin avqust ayında Nizami Gəncəvinin anadan olmasının 840 illiyi haqqında qərar isə nizamişünaslıqda əsaslı dönüş yaratmışdır.

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi haqqında ilk biblioqrafik göstərici Azərbaycan Dövlət Kitab Palatası tərəfindən 1947-ci ildə şairin 800 illiyi münasibətilə nəşr edilmişdir. "Böyük Azərbaycan şairi Nizami Gəncəvi" adlı bu göstəricinin müəllifi görkəmli biblioqraf – alim Əliheydər Qəhrəmanov olmuşdur.

1983-cü ildə nizamişünas Rüstəm Əliyev şairin anadan olmasının 840 illiyi münasibətilə Azərbaycan, rus, fars, ingilis, fransız, alman və ərəb dillərində "Nizami: Qısa biblioqrafik məlumat" adlı vəsait tərtib etmişdir. [3]

"Nizami. Qısa biblioqrafik məlumat" kitabı 1983- cü ildə akademik Ziya Bünyadovun redaktəsi ilə "Yazıçı" nəşriyyatında çap edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 23 dekabr 2011-ci ildə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik





yubileyinin keçirilməsi haqqında Sərəncam imzalamışdır. Sərəncamda deyilir:

2011-ci ildə dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illiyi tamam olmuşdur. [1]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illiyinin keçirilməsi haqqında Sərəncamına əsasən Milli Kitabxana tərəfindən tərtib olunmuş "Nizami Gəncəvi" fundamental biblioqrafik göstərici şairin yubileyinə həsr edilmişdir.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası tərəfindən tərtib olunmuş bu elmi-köməkçi xarakterli biblioqrafik göstərici şairin həyat və yaradıcılığına dair çap olunan materialların 1828-ci ildən 2012-ci ilədək olan dövrünü əhatə edir.

AMEA-nın müxbir üzvü, professor Teymur Kərimli "Nizami Gəncəvi" biblioqrafik göstəricisinə yazmış olduğu "Dahi Azərbaycan şairi və mütəfəkkiri" adlı oçerkə belə bir epiqraf vermişdir: " Nizami Gəncədən doğdu, Azərbaycan göylərinə qalxdı və bütün dünyaya işıq saçdı".

Haqqında bəhs etiyimiz bu elmi-köməkçi xarakterli şəxsi biblioqrafik göstərici də bu Sərəncama əsasən M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası tərəfindən 2012-ci ildə yüksək bədii tərtibatla tərtib olunaraq çap edilmişdir.

Biblioqrafik göstəricinin maraqlı və oxunaqlı bölmələrindən olan "Nizami Gəncəvinin aforizmləri" adlı hissədə şairin əsərlərində işlətdiyi hikmətli şeir parçaları verilmişdir. Onlardan birini misal olaraq göstərək:

Nə qədər şair var, söz var, şeir var
Dünyada onlardan mənəm yadigar.

"Görkəmli şəxsiyyətlər Nizami Gəncəvi haqqında" bölməsində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Xalq yazıçısı Mirzə İbrahimov, akademik Həmid Araslı, şair, filosof Əlişir Nəvai, rus şərqşünası Y.E.Bertels, Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzuli, xalq şairi Səməd Vurğun və digər görkəmli şəxsiyyətlərin dərin məzmunlu fikirləri verilmişdir. Bu fikirlər içərisində ulu öndər Heydər Əliyevin fikirləri Nizami şəxsiyyətinə olan dərin hörmət və ehtiramın bariz nümunəsidir. Ümummilli lider Heydər Əliyev demişdir:

"Nizami Gəncəvi elə bir böyük şəxsiyyətdir ki, elə bir dahidir ki, onun yubileylərini nəinki on ildən, beş ildən bir, hər il qeyd etmək lazımdır."

Bu gün daim yeniləşən Azərbaycan mühitində Nizami irsi, Nizami şeriyyatı, Nizami humanizmi və hikməti cəmiyyət üzvlərinin mənəvi qidasına çevrilmişdir.

## ƏDƏBİYYAT

1.*Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında : Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı, 23 dekabr 2011-ci il./ İ.Əliyev // Azərbaycan .- 2011 .- 24 dekabr.- S.3.*

*2.Əliyev Rüstəm. Nizami Gəncəvi.- B.;Yazıçı.- 1991.-112s.*

*3. Əliyev R. Qısa biblioqrafik məlumat kitabı../ red. Z.Bünyadov.- B.: Yazıçı.-1983.-379 s.*

*4. İsmayılova S.P. Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslıq üzrə sənəd kütləsi biblioqrafiyalaşdırma obyekti kimi: Dərs vəsaiti .- B.:BUN.-2008 .- 66s.*

*5."Народа сердце и глаза. Народа совесть - ты".-Sumqait.- 1991 .- 17s.*

*6. Nizami : Biblioqrafiya ./ M.F.Axundov ad. Azərbaycan Milli Kitabxanası .- B., 2012 .- 632s.*

*7. Nizami Gəncəvi - 850 (Metodik tövsiyələr) .- B., 1990 .- 18s.*

*8. Nizami Gəncəvi (Tövsiyə ədəbiyyat siyahısı) .- B.,1986.- 12s.*

## NIZAMI HERITAGE ON THE BIBLIOGRAPHIC SOURCES

S.P.İSMAYILOVA

***SUMMARY***

*İn this article has given general information about Nizami heritage, publishing of Nizami Ganjavi's works, reference and information base about his, bibliographic information sources devoted genious poet was illuminated.*

**Keywords:** *Genious Azerbaijan poet Nizami Ganjavi, Nizami heritage, bibliographic information sources.*

## НАСЛЕДИЕ НИЗАМИ В БИБЛИОГРАФИЧЕСКИХ ИСТОЧНИКАХ

С.П.ИСМАИЛОВА

***РЕЗЮМЕ***

*В статье рассматривается общая наследия Низами Гянджави, издании поэта, документально-информационная база и библиогр-афическо-информационные материалы посвешён великому поэту.*

***Ключевое слова:*** *Великий Азербайджанский поэт Низами Ганджави, наследие Низами, источники библиографической информации.*